**Vüqar Sərdar oğlu ABDULLAYEV**
Qərbi Kaspi Universiteti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru
E-mail: raguv@mail.ru

# İDMAN GEYİM TƏRZİNİN FORMALAŞMASI MƏRHƏLƏLƏRİ

**Xülasə**

Məqalədə müəllif idman geyimlərinin 19cu əsrdən başlayaraq əhali arasında necə populyarlaşmasından söhbət açır. Bu məqalədə müəllif müxtəlif dizaynerlərin idman geyimlərini gündəlik geyimə çevirməsini və əhali arasında idman uniformalarına marağın artma səbəblərini tədqiq edir. Keçmiş məşhur idmançıların tədricən moda aləminə gəlməsi, məşhur idman moda evlərinin yaranması, əhali arasında yaranan tələbatlarla səsləşməsini və idam üslubunun dünya əhalisinin çox hissəsinin həyat tərzinə çevrilməsini sübut edən faktlar bu məqalədə öz əksini tapmışdır. Bununla yanaşı, məqalədə hansı idman növlərinin daha çox dəbə gəlməsi və onların uğradığı dəyişikliklər izah olunur. İdman modasının digər üslublarla çox asan şəkildə vəhdətə girərək yeni-yeni üslublara gətirib çıxması barədə müəllif bir neçə faktlar araşdırmışdır. Hazırda idman üslubu cəmiyyətimizin bütün sahələrinə cərəyan edərək, formalaşır və müxtəlif növ üslublarla birləşərək yeni şəkildə dəbə gəlir.

**Açar sözləri:** *idman üslubu, idman növləri, ”Preppi” üslubu, “Lacoste” brendi, “Maison de l'Amitié” moda evi.*

**UOT:** 74.01/.09
**DOI:** 10/54414/EXEL5886

## Giriş

İdman üslubu 19-cu əsrin əvvəllərində İngiltərədə yaranmışdır. Rahatlıq və praktiklik Böyük Britaniya cəmiyyətində idman üslubuna maraq yaratmağa başladı. Məhz bu maraqdan irəli gələrək hazır geyimlər ölkə ərazisində aktiv şəkildə satılmağa başladı.

İdman geyimləri bir neçə on illikdir ki, geyim modasına fəal şəkildə daxil olmuşdur. Uzun müddət əsas tendensiya “**atleisure**” adlı üzlub olaraq qalırdı, bu üslub idman və təsadüfi elementlərin vəhdətindən əmələ gəlmişdi. Modelyerlər bu üslubun uğurlu olacağını hiss edərək kolleksiyalarını yaratmağa başlayırlar. Ən son kolleksiyalarda dizaynerlər artıq onu digər elementlərlə qarışdırmırdılar. Bu məqalədə hansı idman növlərinin moda kolleksiyalarının yaranmasında rol oynadığından danışmaq istərdik.

## Əsas mətn



19-cu əsrin sonlarında qeyri-peşəkar idmana həvəs bütün Avropanı bürümüşdü. O zamanlar xüsusilə qolf, tennis, kiçik futbol, velosiped və at sürmə kimi idman növləri dəbdə idi. Bütün bu idman növləri üçün xüsusi, rahat geyim tələb olunurdu ki, bu da öz növbəsində tədricən gündəlik həyatın müxtəlif sahələrinə nüfuz etməyə başladı. Fransada ilk olaraq idman üslubunu dəbə Coco Chanel gətirdi, lakin buna baxmayaraq gündəlik həyatda bu dəb daha əvvəl istifadə olunmağa başlamışdı.[2] Uzun ətəklər velosiped sürmək üçün uyğun gəlmədiyindən onlar dizə qədər olan ətəklərlə əvəz olunmağa başladı. Kroket, tennis və qolf oynamaq üçün kostyumlar tədricən satışa çıxardılmağa başladı.

Burda ilk öncə “Preppi” üslubundan danışmaq yerinə düşərdi. Bu üslub Amerikada ötən əsrin 50-ci illərində meydana gəlmişdi. Əvvəlcə “preppi” elit təhsil müəssisələrinin tələbələrini əhatə edən əsl subkultura üslubu hesab olunurdu. Çox vaxt belə təhsil ocaqlarında yalnız varlı valideynlərin uşaqları oxuya bilərdi. Qeyd etmək lazımdır ki, “preppi” üslubu yalnız görünüş demək deyildi. Bu üslubda geyinən şəxs üçün həyat tərzi çox vacib idi. Bu istiqamətin parlaq nümayəndəsi bütün etiket qaydalarına riayət edən, əxlaqi prinsiplərə hörmət edən və əlbəttə ki, səliqəli bir görünüşə sahib olan, əla oxuyan tələbə olmalı idi. “Preppi” üslubunun əsas elementləri dama-dama köynəklər, trikotaj jiletlər, polo köynəklər, blazerlər, toxunma sviterlər, A-line paltarlar, şortlar və ya Bermud şortları, dizdən yuxarı, bükülü ətəklər hesab olunurdu. Bu üslubda cins şalvarlar da istifadə olunurdu. Geyimlərin istehsalı üçün yalnız təbii parçalardan, xüsusən yun, kətan, kaşmir, pambıqdan istifadə edilməli idi. Həmçinin bu üsluba aktiv daxil olan aksesuarlara böyük diqqət yetirilməli idi. Aksessuarlar zərif və bahalı zərgərlik əşyası ola bilərdi - məsələn, incə asılqanlı kiçik brilyantlarla bəzədilmiş sırğalar. Bu görünüş əlcəklər və kiçik həcmli çanta ilə tamamlanırdı. Qalstuklar, saç lentləri, müxtəlif saç sancaqları da bu üslubda eleqant şəkildə geniş istifadə olunurdu.

Ayaqqabılar yüksək keyfiyyətli materialdan hazırlanmalı və çox rahat olmalı idi. Balet ayaqqabıları, mokasinlər, kiçik dabanlı ayaqqabılar mükəmməl görünməli idi. Üslubun əsas xarakterik rəngləri: açıq qəhvəyi, qırmızı, bej, tünd mavi, xaki idi.

Keçən əsrin 60-cı illərində, “preppi” üslubunun populyarlığının ardınca, sıx materialdan hazırlanmış şortlar, polo köynəklər və sviter paltaralr dəbə gəldi. 60-cı illərin sonlarında idman üslubu modada rəsmi bir tendensiya kimi tanındı. Buna Andre Courrège və Pierre Cardin kimi məşhur dizaynerlərin təsiri səbəb oldu.

1920-1930-cu illərdə əsrin əvvəllərindən sürətlə inkişaf edən idman fəaliyyəti getdikcə daha da populyarlaşdı. 20-ci illərdə qadın ətəklərinin uzunluğunu qısaltmaq, qadın qarderobuna şalvarın daxil olması, 30-cu illərin nazik parçalardan tikilmiş uzun, xüsusi tikilişli paltarlar, çimərlik geyimləri, müxtəlif idman növləri ilə məşğul olmaq imkanı - bütün bunlar harmoniya tələb edirdi. Bu dəbdə geyinən şəxs gözəl bədən formasına malik olmalı idi. İdman modası bədən quruluşunu vurğuladığı səbəbindən əhali idman zallarına can atmağa başladı. Xüsusilə qadınlar mükəmməl görünüş üçün, idman üslubuna uyğunlaşmaq məqsədilə məşq etməyə başladılar.

Bununla yanaşı idman karyerasını bitirdikdən sonra bəzi məşhur idmançılar idman üslubunda paltarlar yaratmaq qərarına gəldilər.

Belə idmançılardan biri də 1933-cü ildə “Lacoste” brendini yaradan Fransa tennis çempionu René Lacoste idi. O, öz moda fəaliyyətinə tennis və qolf oyunçuları üçün nəzərdə tutulmuş polo köynək tikməklə başladı və tədricən onun biznesi istirahət üçün geyim və ayaqqabı istehsal edən nəhəng bir şirkətə çevrildi.

1930-cu illərdə Parisdə moda dünyasında yeni bir ad meydana çıxdı - modelyer Madeleine de Rauch. Madeleine 20-ci əsrin innovativ ideyalarını həvəslə qəbul edən gənc mütərəqqi qadınların kateqoriyasına aid idi. İdmanı - konki və velosiped sürməyi, üzməyi, tennis oynamağı çox sevirdi. 1916-cı ildə Madeleine, 1920-ci ildə Fransa milli xokkey komandasının kapitanı olan xokkeyçi Alfred de Rauch ilə evləndi. 1928-ci ildə bacıları ilə birlikdə Madeleine de Rauch "Dostluq Evi" (Maison de l'Amitié) adlı ilk moda evini açdı, onun əməyi nəticəsində daha ənənəvi geyimlərlə yanaşı, rahat istirahət üçün çoxlu modellər yaradıldı. 1932-ci ildə Madeleine de Rauch moda evi açıldı. Moda tarixində Madeleine de Rauch görkəmli idman geyimi dizaynerlərindən biri kimi tanınır.

İdman modasının başqa bir ulduzu 1932-ci ildə Parisdə moda evini açan Fransız Vera Borea (Vera Borea) qrafinya di Regoli (Countess di Regoli) idi. Vera uzun müddət idmanla məşğul olmuşdu, buna görə də modelyer kimi idman və istirahət üçün ucuz və rahat paltarlar yaratmağa qərar vermişdi. O, modelləri üçün trikotaj, pambıq, kətan, flanel materiallarından istifadə edirdi. Onun modelləri rahatlıq və zərifliyi özündə birləşdirirdi.

1940-cı illərdə ABŞ-ın dağ xizəkləri üzrə Olimpiya komandasının üzvü, İkinci Dünya Müharibəsi illərində ABŞ Hərbi Dəniz Qüvvələrində təlimatçı işləyən aviator Ann Taylor Bonfoey xizək kostyumlarını dizayn etmək

qərarına gəlir. Onun o illərdə "Harper's Bazaar" jurnalının redaktoru olan rəfiqəsi Diana Vriland keçmiş idmançının fikirlərindən ilham alır. Ann Taylor Bonfi təkcə modelyer deyil, həm də modelə çevrilərək dünyaya idman geyimlərinin dəbli, gözəl və hətta cazibədar ola biləcəyini göstərirdi. 1967-ci ildə onun adı "Harper's Bazaar" jurnalının "Dünyanın 100 Gözəli modeli" siyahısına daxil edilmişdir. Ann Taylor Bonfi moda dünyasında bir model kimi "stil ikonaları" adlandırılanlardan biri oldu.

1952-ci ildə ingilis tennisçisi Fred Perri avstriyalı tennisçi Tibbi Veqner (Tibby Wegner) ilə birlikdə məşhur Fred Perry geyim markasını yaratdı. Əvvəlcə "Fred Perry" brendi altında kişi polo köynəkləri istehsal edildi. Bundan sonra şirkət genişlənməyə başladı. İllər keçdikcə bu marka populyarlıq qazandı. Onun çeşidinə "harrinqton" gödəkçələr, idman ayaqqabıları, tennis üslublu paltarlar, müxtəlif trikotajlar və sairə daxil oldu.

1950-ci illərdə, eyni zamanda keçmiş tennisçi olan ingilis Ted Tinlinq idman və gözəlliyi birləşdirərək qadın tennisçilərin uniform dizaynına başladı və onun yaradıcılığı professional tennis dünyasında böyük mübahisələrə səbəb oldu.

Müasir dillə desək, idman moda dizayneri olmuş keçmiş idmançıların yaratdığı üslubu "idman gözəlliyi" adlandırmaq olar. Belə ki, bu vaxta qədər gündəlik həyat ilə idman arasında bir sərhəd var idi. İdman dizaynerləri bu sərhəddi sökərək idman üslubunu adi insanların həyatına gətirdilər.

1930-cu illərdə ABŞ-da geyimdə asudə vaxt və idman üslubunun ən əhəmiyyətli yaradıcılarından biri, "Clarepotter" brendi idi. Bu brend adı altında istehsal edilən zərif, lakin eyni zamanda çox sadə və rahat paltarı dizayner Kler Potter (Clare Potter) yaradırdı. Bu dizayner həm ABŞ da, həm də bütün qərb aləmində çox tezliklə məşhurlaşdı.

1930-cu illərdə Amerika demokratik modasının başqa bir ulduzu, kütləvi istehsal üçün gündəlik geyimləri, o cümlədən idman geyimlərini yaradan modelyer Kler Makkardell idi. Sonradan o, (Claire McCardell) gündəlik geyim və istirahət modası sahəsində Amerikanın ən böyük dizayneri adlandırılacaq.

20-ci əsrin birinci yarısında Amerika dizaynerləri və geyim istehsalçıları gündəlik geyim aləmində çalışaraq, idman üslubunun inkişafına böyük töhfə verdilər, gündəlik geyim üçün demokratik, funksional və rahat modellər hazırladılar, idman uniformalarını gündəlik həyata uyğunlaşdırdılar, bu vaxta qədər sırf idman geyimi hesab edilən paltarları dəyişdirərək, idman və modanı birləşdirdilər. Bu dizaynerlər 1930-cu illərdən 1960-cı illərə qədər istirahət və açıq hava geyimləri, müasir idman-gözəllik tendensiyanın yaradıcısı oldular.

20-ci əsrin birinci yarısında dünyaya qeyri-real dəbdəbəli qlamur üslubunu nümayiş etdirən "Hollivud", idman mövzusundan da yan keçmədi, kino ekranlarında və məşhur nəşrlərin səhifələrində zərif idman geyimində ulduzlar peyda oldu.

1927-cı ildə İtaliyada Samuel Qoldvormun (ata) başladığı işi 1940-ci ildə davam etdirən amerikalı idman dizayneri Robert Qoldvormun (oğul) rəhbərlik etdiyi moda evi - "Goldworm" şirkəti meydana çıxdı. 1947-ci ildə Milanda məskunlaşan Robert Qoldvorm Amerika praktikliyi və italyan gözəlliyini birləşdirən trikotaj məhsulları istehsal etməyə başladı.

İkinci Dünya Müharibəsindən əvvəl məşhur atletika idmançısı olan Ottavio Missoni, dostu, eyni zamanda məşhur idmançı Giorgio Oberveger ilə birlikdə Triest şəhərində trikotaj istehsalı şirkəti yaradır. Əvvəlcə idmançının iki dostu idmançılar üçün paltar tikməyə başladılar. Bir il sonra "Venjulia" geyim xətti Londonda keçirilən Olimpiya Oyunlarında İtaliya idmançılarının rəsmi formasına çevrildi.

1948-ci ildə London Olimpiadasında Ottavio gələcək həyat yoldaşı Rosita Jelmini ilə tanış oldu. Rosita Jelmini nin ailəsi Lombardiyada şal və şərf istehsal edən fabrikə sahib idi. Rositanın vətəninə gələn Missoni cütlüyü kiçik bir toxuculuq emalatxanası yaradır və 1958-ci ildə Missoni Milanda ilk "Milano-Simpathy" kolleksiyasını təqdim edir və rahat trikotaj məhsulları təbliğ edən başqa bir şirkətə çevrilir və moda ictimaiyyətinə trikotajın yüksək modaya layiq olduğunu sübut edir.

1920-ci ildən 1940-cı illərə qədər idman və istirahət tərzi bütün dünyada getdikcə daha çox pərəstişkar toplayır. Buna dünya idman hərəkatının inkişafı - Olimpiya Oyunları, Dünya

Çempionatları, Avropa Çempionatları, ölkələr daxilində keçirilən bütün növ yarışlar, bədən tərbiyəsi və idmanın təbliğinə yönəlmiş ümummilli proqramlar, idman jurnalistikasının inkişafı, idman istehsalının genişləndirilməsi kömək etdi.

İstirahət və idman geyimlərinin satışı getdikcə daha çox univermaqlar tərəfindən asanlaşdırılırdı. Moda jurnallarında və kino ekranlarında idman və istirahət üçün geyimlər, idman üslubu tez-tez görünməyə başladı.

Son vaxtlara qədər əhalinin kasıb təbəqəsi üçün hesab olunan trikotaj məmulatları rahatlığa can atanlar üçün cəmiyyətdə əvəzolunmaz geyimə çevrildi. İsti qalın sviterlər və kiçik zərif sviterlər, jemperlər, trikotaj kardiqanlar, yumşaq və rahat trikotaj kostyumlar 20-ci əsr modasının ayrılmaz hissəsinə çevrildi.

Trikotajla ustalıqla işləyən dizaynerlər onu podiumlara çıxardılar, trikotaj böyük moda dünyasına daxil oldu, bu parça növü artıq ikinci dərəcəli qəbul edilmədi və burada idman üslubunun rolu əvəzolunmaz idi.

1950-1960-cı illərdə dəbdə idman və istirahət mövzuları bir qədər arxa plana keçdi. İnsanlar digər moda oyunlarına aludə oldular, lakin 20-ci əsrin əvvəllərində yaranan yeni tendensiyalar artıq izsiz yoxa çıxa bilməzdi, buna görə də bu onilliklərin görünüşünü yaradan modelyerlər idman üslubuna dair dizayn baxışlarını artırdılar.

Atletik üslub sonrakı onilliklərdə daha da inkişaf etdirilən çoxillik bir mövzu olaraq qaldı.

1970-ci illərdə demokratik modanın ən məşhur dizaynerlərindən biri sadə, rahat və eyni zamanda zərif paltarlar yaradan amerikalı Geoffrey Beene idi. Been idmandan ilham alaraq idman geyim dizaynını axşam paltarları üçün istifadə etmək, eləcə də kişi modasının elementlərini qadın modasına gətirmək kimi gözəl üsuldan istifadə etdi.

Amerikalı modelyer Ralf Lauren "Norman Hilton" geyim şirkətinin maliyyə dəstəyi ilə at poloçusunu təsvir edən məşhur ticarət nişanı olan "Polo Ralph Lauren" şirkətini qeydiyyatdan keçirdi. Əvvəlcə "Ralph Lauren" mağazasında yalnız qalstuklar satılırdısa, lakin sonralar şirkət genişlənməyə başladı və onun çeşidinə idman üslubu və zərifliyi birləşdirən bir sıra əşyalar, o cümlədən kişi modasının təsiri altında tikilmiş qadın geyimləri daxil oldu, bu "birləşmə" və ya "uniseks" tendensiyanın başlanğıcı oldu. Kişi geyimləri üslubunda tikilmiş ağ pambıq köynəkləri artıq qadınlar geyinə bilərdi. Polo köynəklər Ralph Lauren məhsullarının daimi komponenti idi. "Ralph Lauren" geyim markası sadəlik və dəbdəbənin təcəssümünə çevrildi.

Karyerasına 1945-ci ildə başlayan başqa bir amerikalı modelyer Bill Blass 1970-ci illərdə "Bill Blass Limited" şirkətini qurdu, o da idman və moda, dəbə təsadüfi gələn və dəbdəbəli geyimləri birləşdirərək təcrübələr aparırdı.

1968-ci ildən Anna Klein ABŞ-da idman geyimi dizayneri kimi işləməyə başladı, 1970-ci illərdə moda dizaynerləri Roy Halston və Calvin Klein rahat geyimləri ilə getdikcə daha çox diqqəti cəlb etdi.[6]

1970-ci illərdə dünya modasında ***cins şalvar bumu*** dövrü başladı. 19-cu əsrin ortalarında San-Fransiskoda Almaniyadan olan mühacir Levi Ştrauss 1870-ci illərdən cins şalvarlar istehsal etməyə başlayan "Levi Strauss & Co" şirkətini yaratmışdı. Straussun yoldaşı Jacob Davis tərəfindən "Davis" adlı pərçimli, dar iş şalvarları icad edilmişdi. 20-ci əsrin 1950-ci illərindən başlayaraq tədricən gənclərin sevimli və qeyri-rəsmi geyiminə çevrilən cins şalvar getdikcə populyarlaşır. 1960-cı illərdə hippilər və digər gənc üsyançılar sayəsində jins modası inanılmaz sürətlə yayıldı və 1970-ci illərdə əsas dünya trendinə çevrildi. Sonradan "jeans" idman üslubunun ayrılmaz hissəsinə çevrildi.

1970-ci illərin əvvəllərindən idman geyimlərinin dizaynı ilə məşğul olan amerikalı dizayner Calvin Klein 1978 – ci ildə dünyada ilk dəfə olaraq ***dizayner cins şalvarların***ı satışa çıxardı.

İdman modasında əsl bum 1980-ci illərdə başladı. İdman və aktiv istirahət üçün nəzərdə tutulmuş geyimlər dəb halını aldı, insanların idman üslubunda olan əşyalara utilitar münasibətini arxa plana keçirdi.

1982-ci ildə amerikalı aktrisa Ceyn Fonda bədii gimnastika - aerobika üzrə məşqlərdən ibarət ilk video proqramını buraxdı və tezliklə bütün dünya **idman həyat tərzi üslubuna** heyran oldu. İdman həyat tərzi kino ekranlarında və moda jurnallarının səhifələrində yayımlanırdı. Leggings, krossovkalar, köynəklər, elastik baş bantları, beysbol papaqları, idman çantaları super dəb halına gəldi, bir sözlə, uzun

illər peşəkar bir istiqamət olan və moda seqmenti kimi qəbul edilməyən hər bir idman atributu dəbə gəlir. Moda çeşidi hər kəsin sevimli cinsləri ilə tamamlanırdı.

1980-1990-cı illərdə getdikcə artan idman modelyerləri idman mövzusuna müraciət etməyə, idman geyimindən elementlər götürməyə, onu dəyişdirməyə, eksperimentlər aparmağa, sırf idman geyimlərini digər üslublarla birləşdirməyə başladılar. İdman üslubu moda dünyasında uzun müddətli kök salmışdır. Aktiv geyim və idman geyimi arasındakı xətlər getdikcə şəffaflaşır, bir çox insanlar gündəlik geyim kimi idman kostyumları, idman sviterləri, idman ayaqqabıları və digər idman geyimləri geyinməyi üstün tuturlar.

Bütün sonrakı onilliklərdə həm görkəmli dizaynerlər, həm də demokratik geyim istehsalçıları daim idman mövzularına müraciət edirdilər. İdman mövzusu Marc Jacobs, Donna Karan, Miuccia Prada, Isaac Mizrahi, Tommy Hilfiger və bir çox başqalarının kolleksiyalarında görünürdü.

19-cu əsrin sonlarından başlayaraq dünya modasında yaradılan hər bir atribut, o cümlədən idman sahəsindəki təcrübələr toplanmış və birləşdirilərək, dəyişən, təkmilləşərək müasir insanın həyatından artıq yox ola bilməyəcək bir istiqamətdə həyatımıza həmişəlik daxil olur.[8]

Moda sənayesinin bu bölməsinə aid olan geyimlər aşağıdakı əsas xüsusiyyətlərinə görə fərqləndirilir: ***funksionallıq, rahatlıq, keyfiyyət.***

**İdmanın müxtəlif növlərində istifadə olunan geyim tərzlərinə nəzər yetirək.**

**Boks:** “Dior” yaz-yay kolleksiyası üçün ilhamını təkcə altmışıncı illərdən deyil, həm də boksdan alırdı. Kolleksiyada rinqdəki boksçuların üslubunda monoxrom gödəkçə dəstləri, boks şortu və xalatlar təqdim olunurdu. **At sürmə:** Virginie Viard Chanel-in son moda kolleksiyalarından birində ən aristokratik idman növünə müraciət etmişdir. Podiumda Monaka şahzadəsi Şarlotta at belində səhnəyə çıxmışdır. **Tennis:** Yay idmanı kimi tərənnüm edilən böyük tennis idman növünün geyimləri də geniş şəkildə bu üsluba aid edilir. Dəbli tennisçilərin qat-qat qısa ətəkləri, dizə qədər uzun corablar bu üsluba yaraşıq verir. Bu forma həm tennis oynamağa, həm də geyim üslubu kimi qələmə verilə bilər.

Kapüşonlu idman gödəkçələri, idman ayaqqabıları və sairə təkcə peşəkar idmançılar tərəfindən geyilmirdi. Gözəl, üslublu və rahat geyimi hətta ciddi ofis işçilərinin əynində də bu dəbli geyimi görmək olardı. Ciddi kostyumlar, qalstuklar və ağ köynəklər rahatlıq naminə çox vaxt idman növü və trendi ilə əvəz olunurdu.



İdman modası qlobal moda prosesinin bir tərkib hissəsidir və bu üslub asanlıqla kombinə edilə bilir. 2010-cu illərdən etibarən idman üslubu gündəlik həyata o qədər sürətlə daxil olur ki, artıq bu üslubun yeni-yeni növləri yaranmaqdadır.

21 – ci əsriin astanasında brendlər kolleksiyalarında kişi və qadın geyimləri birləşdirilir, əsl universal - uniseks modası meydana gəlir.

Bu prosesin bir hissəsi kimi idman modası daha inertlərşir və dəyişməyə daha az təhrik edilir. “Nike” və “Adidas” kimi idman nəhəngləri dəb və kütləvi bazarı izləyir eləcə də daimi olaraq moda analitikasını aparır.

Tarixən idmandan indiki modaya daxil olan geyimlər bir zamanlar qəti kişi geyimlərinə aid olunurdu: 19-cu əsrin sonuna qədər qadınların idmana açıq çıxışı yox idi.

Tennis, polo bir idman növləri kimi 20 - əsrdə inanılmaz yüksəliş yaşayır: bir vaxtlar elit kişi idmançılarının uniforması olan geyimlər bu gün qadınların gündəlik geyiminə çevrilmişdir. Keçən əsrin 70-ci illərində avropada və amerika qitəsində aerobika bumu yaşanır və ortaya çıxan şortlar və gödəkçələr, xüsusilə xanımların qarderobunda yer tutmağa başlayır.

Hər mövsümə yeni tendensiyalar əlavə olunur, manşetləri olan xizək şalvarları qış modasına daxil olur. Xizək sürənlərin idman köynəkləri, idman ayaqqabıları, kapüşonlu sviterləri, hətta uzun yaxalı yun jiletlər - bu geyimlər sırf idman üslubundan gündəlik geyimlərə keçmişdir və illər ötdükcə demək olar ki, hər qış fəslində trendə çevrilməkdədir.

Lakin bu tendensiya heç də o demək deyil ki, yalnız idman üslubuna üstünlük verilməlidir.

İdman geyimi ilə idman zalında geyinən uniform arasında çox zaman bir fərq olur. Fitness zalında əsasən yüngül geyimlərdən, həyatda isə idman üslubunu vurğulayan atributlardan istifadə olunur. İdman üslubunun fərdi detallarının yayılması da geyim tərzimizə təsir göstərən amillərdəndir. İdman həyatından gündəlik üsluba bir çox tanış elementlər daxil olmuşdur.

Buna misal olaraq demək olar ki, Amerika beysbolu beysbol papağını populyarlaşdırdı və hazırda beysbol kepindən istifadə xüsusən çimərlik üslubunda tez-tez rast gəlinir.

Müasir qapalı üzgüçülük paltarları həmçinin çimərlik üslubuna öz təsirini göstərmişdir. Bir çox futbolçunun sevimli köynəkləri, corabları və şortları hərraclarda satılır və gəlir adətən humantitar təşkilatlara köçürülür.

Qısa büzməli ətəkləri olan qısaqol köynəklər 20-ci əsrin ən dəbli hobbilərindən birinə çevrilmişdir və burada böyük tennisin rolu mühümdür. Atçılıq idman növü cəmiyyətə şalvar və hündür çəkmələri bəxş etmişdir.

Bu günki moda dizaynı klassik trikotaj papaqlara, keplərə və bir çox isti geyimlərə görə xizək sürmə, fiqurlu konkisürmə və bobsley kimi qış idmanlarına borcludur.

Müasir idman modası çox müxtəlifliyi və orijinallığı ilə bir neçə üsluba bölürünür:

**"Saf" idman üslubu.** Sərbəst silueti olan sadə tikilmiş geyim tərzidir.

Sviterlər, köynəklər, güləş ayaqqabıları, polo köynəklər, gödəkçələr, çox vaxt geniş şalvarlar və ya "banan", leggings, kombinezon və ya düz paltar kimi orijinal həllər də burada istifadə olunur.

Ayaqqabılar: Bütün variantlar bu üsluba uyğun gəlir - düz altlı, dabansız, təbii materiallardan, o cümlədən balerinalar və mokasinlər də bura aid oluna bilər.

Dekorasiyalar. Müxtəlif loqolar, çaplar, başlıqlar, düymələr, zolaqlar, manjetlər, krujevalardan istifadə olunur. Əlavə olaraq kiçik ölçülü bir çanta da dekorasiya nümunəsi ola bilər.

Bu istiqamətin bir neçə adı var. Buna idman-qlamur, idman-zərif və ya idman-klassik geyim tərzi də deyilir. Bu üslubların başlanğıcı keçən əsrin 80-ci illərindən, bodibildinq və aerobika dəbə girdiyi zamandan gəlir. Qadınlar geniş kəmərlər, baş bantlar, böyük plastik sırğalardan aksessuar kimi istifadə edirdilər. O vaxtdan bəri üslub əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır, lakin ümumi xüsusiyyətlər eyni olaraq qalmaqdadır. İdman üslubu zövqlə qlamurun vəhdətində yerləşməkdədir.

**"Safari" üslubu**

Yalnız təbii parçalardan ibarət geyimlər: kətan, pambıq və ya müxtəlif təbii çalarlarda həqiqi dəri paltarlar. Bu üslubun palitrası öz adına layiqdir. Afrika cəngəlliklərində və səhrasında olan bütün rənglərdən, yəni sarı, yaşıl, torpaq rəngi, bej, qəhvəyi, ağ, boz rənglərdən istifadə olunur. Dekorativ ciblər, toxunmuş kəmərlər, papaqlar, dəridən, ağacdan, sümükdən və ya qiymətsiz daşlardan hazırlanmış hər hansı bir məhsul bu üsluba yaraşıq verir. “Safari” üslubunda makiyaj təbii olmalıdır və ya yuxarıda göstərilən rənglərdən istifadə olunmalıdır.

**İdman - təsadüfi**

Bu moda meylinin əsas xüsusiyyəti diqqətsizlikdir. Ev paltarlarına çox bənzəyir, buna görə də çoxlu lapellər, flanellər və qırış effektləri vardır. Bu üslub bütün idman həvəskarlarına uyğun gəlir. Burada paltarları istənilən idman əşyaları ilə birləşdirmək mümkündür. Cins şalvarları, sviter köynəklər, parlaq gödəkçələr, kombinezonlar və eyni materialdan hazırlanmış ətəkləri idman ayaqqabısı ilə birləşdirilən modelləri bura aid etmək mümkündür.

Hələ 1976-cı ildə Yuqoslaviya əsilli amerikalı dizayner, daha çox Zoran kimi tanınan Zoran Ladicorbiç öz innovativ baxışlarını nümayiş etdirərək, çox bahalı təbii parçalardan hazırlanmış son dərəcə sadə geyim modelləri ilə ictimaiyyəti heyrətləndirmişdi. Onun zəngin insanlar üçün nəzərdə tutulmuş geyimi tamamilə minimalist, rahat və eyni zamanda cazibədar idi. 1993-cü ildə məşhur moda köşə yazarı olan britaniyalı jurnalist Suzy Menkes yazır ki, Zoranın cazibədar üslubu və minimalizmi birləşdirən ideyaları gələcəyin dəbində xüsusi yer tutacaqdır.

2000-ci illərdə idman üslubunun əhatə dairəsi daha da genişləndi. İdman zövqü termini meydana gəldi, uzaq keçmişdə formalaşmağa başlayan bir istiqamət idman və məişət qarışıqlarının yaradıcıları üçün sonsuz üfüqlər açdı. İdman elementləri təkcə gündəlik modaya

deyil, hətta axşam –istirahət geyimlərinə və biznesə də nüfuz etməyə başladı. Tamamilə fərqli üslub istiqamətlərindən olan geyimlər indi bir dəstdə asanlıqla birləşdirilə bildi, ənənəvi olaraq axşam gəzintiləri və yüksək səviyyəli tədbirlər üçün paltarlarla əlaqəli parçalar və trikotaj paltarları ilə birlikdə mövcud olmağa başladı.

21-ci əsrin dizaynerləri sadə və status, rahatlıq və ziyafət, idman və zərifliyi birləşdirən idman üslubu və idman zövqü mövzusunun inkişafını uğurla davam etdirdilər. İdman zövqü dəbdə ən innovativ tendensiyalardan birinə çevrilərək, müxtəlif üslubların birləşməsinin maraqlı nəticələr verə biləcəyini nümayiş etdirdi. Bir çox aparıcı müasir dizaynerlər yeni zaman üçün dəbli görünüş yaradaraq bu istiqamətdə işləməyə davam edirlər.

Dövrdən dövrə uzun yol qət edən böyük tarixi işlərin yoldaşı olan idman geyimləri dəb arenasında haqlı olaraq şərəfli yerini tutmuşdur. İdman tərzi müasir insanın moda arsenalının ayrılmaz hissəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abdullayev V.S. “Əməkdar İncəsənət Xadimi Nəcəfqulu İsmayılovun yaradıcılığı” – dissertasiya. Sənətşünaslıq üzrə fəlsəfə doktorluq dissertasiyası
2. С.А.Полиевский «Спортивная одежда» – 2006 г. Москва
3. Екатерина Кулиничева «Крассовки, Культурная биография» 2010 г. Москва
4. Мари Гринде Арнтцен «Дресс код» 2012 г. Москва
5. Hacıyev N. – “Zamanın boyaları” kitabı, Bakı – 1979, səh. 105 – 110
6. «Так говорили великие кутюрье. О моде, о жизни, о себе» Сборник № 2, 2008 г. Москва
7. Markelov N. – “Мужской характер”, журнал, http//www.blago-mh.ru/issues/16-17/24_cards.php
8. “Sporting Fashion” Kevin L. Jones and Christina M. Johnson, 2021
9. “Fashion and Sport” by Ligaya Salazar, 2008 London
10. «Большая Советская Энциклопедия», (http://bse.sci-lib.com/article077593.html)
11. «Республика Дагестан» журнал, (http://ys.mmc.ru/dagestan.html)
12. «Театральная энциклопедия», журнал (http://0/librarus.ru/booki/theatre/202/html)

**Вугар Сардар оглы АБДУЛЛАЕВ**
Западно-Каспийский университет,
доктор философии по искусствоведению
E-mail: raguv@mail.ru

# ЭТАПЫ ФОРМИРОВАНИЯ СТИЛЯ СПОРТИВНОЙ ОДЕЖДЫ

**Резюме:** В статье автор рассуждает о том, как спортивная одежда, начиная с XIX века стала популярной среди населения. В данной статье исследуются причины, по которым различные дизайнеры превращают спортивную одежду в повседневную одежду, а также обсуждается растущий интерес к спортивной форме среди населения. В статье отражен тот факт, что в мир моды постепенно пришли бывшие знаменитые спортсмены и создание известных домов спортивной моды нашло отклик у населения, а стиль исполнения стал стилем жизни большей части населения планеты.
Кроме того, в статье объясняется, какие виды спорта более модны и какие изменения они претерпевают. Автор исследовал несколько фактов о том, как спортивная мода может легко сливаться с другими стилями и приводить к появлению новым стилям. В настоящее время спортивный стиль распространяется во все сферы нашего общества, формируясь и входя в моду по-новому, сочетаясь с разными стилями.

**Ключевые слова:** Спортивный стиль, спорт, стиль «преппи», бренд «Lacoste», дом моды «Maison de l’Amitié».

**Vugar Sardar ABDULLAYEV**
Western Caspian University,
Doctor of Philosophy in Art Studies
E-mail: raguv@mail.ru

## STAGES OF FORMING THE STYLE OF SPORTSWEAR

**Summary**

In the article, the author discusses how sportswear became popular among the population starting from the 19th century. This article explores the reasons why various designers have turned sportswear into everyday wear and growing interest in sports uniforms among the public. The facts proving gradual arrival of former famous athletes in the fashion world, emergence of famous sports fashion houses, their resonance with demands of the population and an execution of sports style into the lifestyle of most of the world's population are reflected in this article. In addition, the article explains which sports are more fashionable and the changes they undergo. The author has researched several facts about how sports fashion can easily merge with other styles and lead to new styles. At present, the sports style is spreading to all areas of our society, forming and coming into fashion in a new way by combining with different styles.

**Keywords:** sports style, sports, "Preppy" style, "Lacoste" brand, "Maison de l'Amitié" fashion house.

**Daxil olub:** 21.08.2022
**Access date**